"Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla (özünü xalqa göstərmək üçün) sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxar-mayın. Belə şəxslərin halı, üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpa-ğı (yuyub) aparar və qayanı çılpaq bir daş halına salar. Onlar qazandıqlarından bir şeyə qadir (nail) olmazlar. Şübhəsiz ki, Allah kafirləri haqq yoluna yönəltməz!" **("Bəqərə" surəsi, 264).**

Dosye:

Abdulaziz Bayındır 1951-ci ildə Ərzurum şəhərində doğulub. 1976-cı ildə Atatürk Universitetinin İslami elmlər fakultəsindən məzun olub. 1976-1997-ci illərdə İstanbul Müftülüyündə müftü müavini və mütəxəssis olaraq işləyib. Bu müddət ərzində Fətva Qurulu başqanlığının rəhbəri olub. 1983-1993-cü illərdə İsali Elmlər Araşdırma vəqfinin elmi yığıncaqlarını təşkil edib. 1984-cü ildə ilahiyyat üzrə doktor, 1987-ci ildə dosent olub. 1993-cü ildə Süleymaniyyə vəqfini qurub. 2003-cü ildə islam hüququ üzrə professor olub. Hər gün fəaliyyətlərini davam etdirən Abdulaziz Bayındır evlidir və dörd övladı var. Ərəb, ingilis və fransız dillərini bilir. www.kurandersi.com və www.muselmanlar.com saytlarından Bayındırın görüntülü çıxışlarına baxa bilərsiniz.

"Quran insanlara verilmiş təmiz sudur, havadır"

Əvvəllər Turan İbrahimovun aparıcılığı ilə ANS-də efirə gedən "Günə baxan" verilişində "Müqəddəslər" haqqında bir mövzu müzakirəyə çıxarılmışdı. Bu verilişdə ziyarətgah, pir və sair kimi məsələlər də toxunduq. Bunların İslamla əlaqəsi olmadığını ifadə etdim. Hətta verilişin ortasından etibarən aparıcının qulaqcığına müxtəlif etiraz dolu zənglərin gəldiyi bildirildi. Verilişdən sonra bu məsələ ilə bağlı çoxsaylı suallar verildi. Həmin suallardan biri də "Niyə indiyə kimi heç kim bunları deməyib?", "Sən onlardan çox bilirsən?" və sair kimi sual yağışına tutuldum. Bu suallardan biri isə belə idi: "O boyda Türkiyədə bir nəfər bu haqda danışmadığı halda, sən haradan çıxarırsan bunları?" Maraqlı sual idi. Türkiyədə indiyə kimi bu haqda danışanlar olubmu və varmı? Sadəcə mən bilmirdim. Əmin idim ki, var. Və belə bir ərəfədə həmin ölkənin Habertürk kanalında "Tarihin arka odası" adlı verilişdə belə bir müzakirənin getdiyinin şahidi oldum. Səhərə qədər seyr etdim verilişi. Orada Quran hafizlərinə, ilahiyyatçılara və tarixçilərə Quranla cavab verən bir alimi ilk dəfə gördüm. Təsəvvür edin, bu şəxs ona etiraz edən Quran hafizinə ayəni əzbər oxumasını xahiş edir, oxunan ayə onun öz iddialarını təkzib edirdi. Bəli dərhal internetdə axtarmağa başladım. Bəli, həmin şəxs ömrünü Quran-Sünnə bütünlüyünə həsr etmiş, Süleymaniyyə vəqfinin qurucusu professor, dr. Abdülaziz Bayındır idi.

Yolum Türkiyəyə düşən kimi Abdülaziz bəylə görüşdüm. Həqiqətən çox təsirləndim. Zəhmli görünüşü təvazökarlığına xələl gətirmirdi. Görüşdük, danışdıq və müsahibə aldıq. Həmin şəxsi sizə qısa da olsa, tanıtmaq üçün bu müsahibəni sizə təqdim edirəm.

- Hədislər haqqında nə fikirləşirsiniz?

- Allah Qurani-Kərimdə Peyğəmbərimizə buyurur ki, "Biz sənə Kitabı və hikməti öyrətdik". Kitab Qurani-Kərimdir, hikmət isə Qurandan çıxarılan doğru hökmlərdir. Hikmət bir stəkan çay kimidir. Məsələn, təbiətdə stəkan varmı? Gərək kimsə düzəltsin ki, olsun. Təbiətdə çay da yoxdur. Suyu qaynadacaqsan, otu gətirib dəmliyəcəksən ki, çay olsun. Bunları edərkən qazın olacaq. Və bunlarla yanaşı da çay hazırlamağı bilən adam olmalıdır. Peyğəmbərimizin hədisləri də misal verdiyimiz çay kimidir. Onun içərisindəki hər şey Qurani-Kərimdə var. Amma Quranın da öz açıqlama üsulu var. Bütün bunları birləşdirilərək çay hazırlanıb. Sizi çayı təbiətdə görə bilmədiyinizə görə çayın olmadığını deyə bilmərsiniz. Peyğəmbərimizin hədislərini də hamı Quranda görə bilməz. Amma çayın necə hazırlandığını bilən hər şeyin təbiətdə olduğunu yaxşı bilir. Qurandan hökmlərin necə çıxarıldığını bilən də Peyğəmbərimizin sözlərinin Qurandakı hikmətlər olduğunu çox yaxşı olaraq bilir.

- Hazırda Azərbaycanda baş örtüyü problemi var. Başı örtülü şagirdlər orta məktəblərdə dərslərə buraxılmır. Sizin bu məsələ ilə bağlı fikrinizi öyrənmək istəyərdik...

- Almaniyada konfrans verməyə dəvət etmişdilər. Almaniya hökuməti də belə bir qərar mərhələsində idi. Mən almanlara dedim ki, baş örtüyünü qadağan etmək istəyirsinizsə, Konstitusiyanızdan dini etiqad azadlığı haqqındakı maddəni çıxarmalısınız. Buna etiraz etdilər ki, belə bir şey ola bilməz. Onda dedim ki, Qurani-Kərimdəki baş örtüyü ilə bağlı ayələri ləğv edin. Çünki Allah qadınlara başın örtülməsini əmr edir. Din azadlığını tanıyırsınızsa, dinini yaşayan insanın dininə uyğun örtünməyini də qəbul edəcəksiniz. Qurandan da Allahın hökmlərini heç kim çıxara bilməyəcəyinə görə siz baş örtüyü ilə bağlı səhv fikrinizdən daşının. Dinə qarşı olan mübarizədə həmişə həmin mübarizəni aparanlar itirərlər.

Həmin gündən sonra almanlar bu yasaqlama işindən əl çəkdilər. Eyni məsələni Azərbaycan üçün də ifadə edə bilərik. Əgər dini etiqad azadlığını tanıyırsınızsa, baş örtüyü haqqını da tanımalısınız. Çünki bu insanların seçimi deyil, Allahın əmridir. Dövlət də vətəndaşlarının din azadlığını qorumaq üçün var.

- Dünya demək olar ki, Məkkə dövrünü yaşayır. Bu dövrdə Azərbaycanda din adı altında çoxsaylı mövhumat və xurafatlar var. Bəzi insanlar dini peşə halına gətirərək mənfəət əldə edirlər. Quran oxuyub pul alırlar. Pirlərlə bağlı səhv inanclar var. Bunların qarşısını almaq üçün siz nələri tövsiyə edərsiniz?

- İnsanlara doğruları göstərmək lazımdır. Səhvləri hamı görür. Doğruları görən kimi həmin səhvlərdən uzaqlaşacaqlar. Pirlərə gedib pul qoyanlardan da soruşsanız ki, bundan nə gözləyirsiniz? Heç nə gözləmədiklərini deyəcəklər. Hər insan əslində etdiyi səhvi bilir. Sizin dediyiniz adamlara, mollalara aparıb pul verənlər də bu işdən razı deyillər. Sadəcə belə bir adət, ənənə formalaşdırlıb. Ona görə də insanlara Quranı çatdırmaq lazımdır. Çünki Quran insanlara verilmiş tər-təmiz sudur, havadır. Heç kim buna xeyr deyə bilməz. Sən insana təmiz suyu verərsən və o bunun təmizliyini, gözəlliyini görər, amma içkisini içərsə, özü bilər. Bu artıq onun öz seçimidir.

Quranı anlatdığınız vaxt güclü olarsınız, çünki Allah sizə yardım edər. İndi sizin olduğunuz bu Süleymaniyyə vaqfi kiçik yer olmasına baxmayaraq, təsirləri çox böyükdür. Bu da Qurandan qaynaqlanır.

Elşad MİRİ

PROFESSOR ABDULAZİZ BAYINDIRIN TƏSİS ETDİYİ

Süleymaniyyə Vəqfinin məqsədi...

Bizim Süleymaniyyə Vəqfi olaraq ən mühüm məqsədimiz Allahın mesajını başa düşmək və başa düşülməsinin yayılmasıdır.

Yaşadığımız həyatı Quran baxımından dərk etməliyik. Səhabələr də belə ediblər. Quran ancaq belə bir anlayışın sayəsində fərd və cəmiyyət üzərində müsbət təsirləri ola bilər. Səhifələri və qabı müqəddəs hesab edilən və ondan öyüd-nəsihət alınmasının qarşısı kəsilmiş bir Quran anlayışı bəşəriyyət üçün necə deyərlər, bir itki və zülmdür.

İnsanların mühüm bir hissəsi inanclılardan ibarət olduğu halda, müxtəlif ifrat və təfritlərə yol verərək Quranın və peyğəmbərin insanlara öyrətdiklərinin xaricində qalan bəzi yollara düşüblər. Məlumdur ki, hətta Muhəmməd peyğəmbərə (s) də müşriklərdən olmamaq barədə xəbərdarlıq edilib. Belə olan halda, inanclı insanların Allaha müşriklər kimi inanması və bu məsələni ciddi qəbul etməmələri olduqca qəribədir. Allahın ayələri sənə nazil edildikdən sonra nəbadə, onlar səni bu ayələrdən uzaqlaşdırmasınlar. Rəbbinə dəvət et. Əsla müşriklərdən olma! ("Qəsəs" surəsi, 87).

Heç şübhə yoxdur ki, bu kimi hallar, mövhumat və xurafat Quran baxımından tədqiq edilməklə hamının düzgün olan şeyi öz mənbəyindən öyrənməsi üçün cəhd göstəriləcək. Siz həddi aşan kəslərsiniz deyə, Biz sizi Quranla xəbərdar etməkdən vaz keçək? ("Zuxruf" surəsi, 5).

Quran elə bir kitabdır ki, o, ancaq inananlara bu dünya və axirətlərini qazandıracaq bir öyüd-nəsihət olmaqla yanaşı, eyni zamanda bəşəriyyətin bu dünyadakı həyatını düzgün tənzimləyən prinsip və tövsiyələri də əhatə edir. Müvafiq elm sahələrinin Quranın dünya həyatı ilə əlaqədar həmin tövsiyələrinə dair həyata keçirəcəyi qərəzsiz və rasional tədqiqatlar bəşəriyyət üçün olduqca mühüm nəticələr verə bilər.

Yaradanımızın tövsiyələrini nəzərə almaq üçün dünyanın dörd bir yanında görülən işlərə əlavə olaraq fondumuzun həyata keçirdiyi işlər bir dua mahiyyəti daşıyır; həm də qeyd edək ki, elmi səviyyədə olan hər növ müzakirə, mübahisə, irad və bu kimi şeyləri qiymətləndiririk.

"Hər kəsin üz tutduğu bir qibləsi var. Siz xeyirli işlərdə yarışın. Harada olursunuzsa, olun, axırda Allah sizi bir yerə cəm edər. Şübhəsiz ki, Allah hər şeyə qadirdir" ("Bəqərə" surəsi, 148).

"Yaratdıqlarımız arasında həmişə haqqa çatdıran və ədaləti haqq ilə yerinə yetirən bir millət olur" ("Əraf" surəsi, 181).

SÜLEYMANİYE VAKFI